


AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

"2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI"

RÜBLÜK İCMAL

**TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR**

# Xocalı faciəsinin 22-ci ildönümü anılıb

Xaricdə təhsil alan azərbaycanlı tələbələr təhsil aldıqları ölkələrdə Xocalı soyqırımının 22-ci ildönümünə həsr edilmiş etiraz aksiyaları keçiriblər. Aksiyalarda "Xocalıya ədalət" şüarı altında yazılmış və Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə bağlı faktları özündə əks etdirən plakatlar, Xocalı qətliamı ilə bağlı dünya mətbuatında yayımlanmış məqalələr, hadisəni əks etdirən fotoşəkillər və müxtəlif nəşrlər nümayiş olunub.

Həmçinin aksiyalar çərçivəsində qurulmuş stendlərdə faciə haqqında kitablar, jurnallar, bukletlər və disklər paylanılıb. Bundan əlavə, yerli əhaliyə Dağlıq Qarabağ münaqişəsi və xüsusilə Xocalı faciəsi ilə bağlı məlumatlar verilib. Xocalı faciəsinin mənəvi, siyasi və hüquqi müstəvidə tanınmasına yönələn "Xocalıya ədalət" kampaniyası hazırda dünyanın 40-dan çox ölkəsində uğurla həyata keçirildiyi qeyd olunub.

## Təhsil Nazirinin müavini Londonda azərbaycanlı tələbələrlə görüşüb



Təhsil nazirinin müavini Ceyhun Bayramov Böyük Britaniyaya səfəri çərçivəsində 22 yanvar 2014-cü il tarixində bu ölkədə təhsil alan azərbaycanlı tələbələrlə görüşmüşdür. C.Bayramov səfəri çərçivəsində keçirdiyi görüşləri barədə məlumat vermişdir. Azərbaycanda təhsilin inkişaf prioritetləri və keyfiyyətin təmin edilməsindən danışan nazir müavini Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əhəmiyyətini vurğulamışdır.

C.Bayramov "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın icrası, Azərbaycanın ehtiyacına uyğun prioritet ixtisasların müəyyənləşdirilməsi, əhatə olunan ölkələrin coğrafiyası və s. barədə məlumat vermişdir. O, həmçinin indiyədək xaricə göndərilmiş tələbələr və məzunların işlə təmin edilməsi mexanizmindən də danışmışdır.

Cənab Bayramov bildirmişdir ki, azərbaycanlı gənclərin xaricdə təhsil almağa göndərilməsi ölkəmizin yüksək ixtisaslı mütəxəssislərə ehtiyacının ödənilməsinə xidmət edir. Təhsil nazirinin müavini tələbələrin suallarını cavablandırmış, onların problemləri ilə maraqlanmışdır.



## Dövlət Proqramının məzunu Mətin Kərimli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini təyin olunub.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 279 nömrəli Sərəncamı ilə Kərimli Mətin İmdad oğlu Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini təyin edilib.

Qeyd edək ki, Mətin Kərimli 1995-1999-cu illərdə Bakı Dövlət Universitetində beynəlxalq münasibətlər üzrə bakalavr, 1999-2002-ci illərdə isə Fransanın Strasburq Universitetində (o zaman Robert Şuman Universiteti) Avropaşunaslıq üztə magistr təhsili alıb.

"2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" məzunudur.

Almaniya və İtaliyada uzunmüddətli peşəkar tədris və təlim proqramlarında iştirak edib. 2005-ci ildə Xarici İşlər Nazirliyində, 2008-2011-ci illərdə Brüsseldə NATO-nun Beynəlxalq Katibliyində və Azərbaycanın NATO yanında Nümayəndəliyində çalışıb. Daha sonra Harvard Kennedi Məktəbində təhsil alaraq, peşəkarlığını artrıb. Mətin Kərimliyə əmək fəaliyyətində uğurlar arzu edirik!

## "SABAH"Qruplarının Təqdimat Mərasimi Keçirilib



Fevralın 13-də Təhsil Nazirliyinin tabeliyindəki ali təhsil müəssisələrində yaradılacaq "SABAH" qruplarının təqdimat mərasimi keçirilib.

Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov "SABAH" qruplarının yaradılması zərurəti haqqında fikirlərini bildirib. "SABAH" qrupları savadlı, bacarıqlı və hazırlıqlı tələbələrdən təşkil olunacaqdır. Təhsil naziri bildirib ki, qloballaşan dünyanın yeni çağırışları və ölkədə yüksək biliyə malik cəmiyyətin qurulması zərurəti Azərbaycan gəncliyi qarşısında tamamilə yeni tələblər qoyur. Bu tələblər ali təhsil sahəsində keyfiyyətin təmin olunması üçün istedadlı, öyrənməyə güclü marağı olan tələbə və müasir tədris üsullarını mənimsəmiş müəllim amilini aktuallaşdırır.

"SABAH" qruplarında müvafiq universitetlərdə çalışan müəllimlərlə yanaşı, "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almış gənc kadrların potensialından da istifadə olunması nəzərdə tutulub. Təhsil naziri qeyd edib ki, "SABAH" qruplarının səmərəli fəaliyyətinin təmin olunması ilə yanaşı, bütün tələbələrin yüksək səviyyədə təhsil almalarının təmin olunması qarşıda duran prioritet vəzifələrdəndir.

UNIVERSITY OF CAMBRIDGE

## Böyük Britaniyanın Kembric Universitetində Azərbaycan tədqiqat qrupu yaradılmışdır

Böyük Britaniyanın Kembric Universitetində Azərbaycan tədqiqat qrupunun açılış mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycanın Böyük Britaniyadakı səfiri Fəxrəddin Qurbanov və amerikalı tədqiqatçı, Rusiya və Avrasiya bölgələri üzrə ekspert Paul A.Goble "Dünya yol ayrıcında: Azərbaycan və Qafqazın geosiyasəti" mövzusunda məruzə ilə çıxış etmişlər.

Əvvəlcə Kembric Universitetində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin sədri və Dövlət Proqramı məzunus Murad İsmayılov tədqiqat qrupunun fəaliyyəti və gələcək planları haqqında ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, qrup mütəmadi olaraq ölkəmizlə bağlı elmi konfranslar və tədbirlər keçirməyi planlaşdırır.

## Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün prioritet ixtisas istiqamətlərinin siyahıları təsdiq olundu!




Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya sədrinin 10 fevral 2014-cü il tarixli, 11 nömrəli sərəncamı ilə təsdiq olunmuş siyahılara əsasən, 2014-2015-ci tədris ilində azərbaycanlı gənclər Dövlət Proqramı çərçivəsində dünyanın 33 ölkəsinin 544

ali təhsil müəssisəsində təhsil almaq məqsədilə müraciət edə bilərlər. Əvvəlki illərlə müqayisədə, siyahıların daha tez təsdiq olunması əksər xarici ali təhsil müəssisələrinə tələbələrin qəbulu prosesinin təqvim ilinin əvvəlində aparılması və bu səbəbdən Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almaq niyyətində olan gənclərə ali təhsil müəssisələrinin seçimində yardımçı olmaq məqsədi daşıyır. Daha bir yenilik ondan ibarətdir ki, müvafiq siyahı qüvvəyə minənədək, yəni 10 fevral 2014-cü il tarixinə qədər xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul olunmuş şəxslər üçün 2013-2014-cü tədris ili üzrə təsdiq edilmiş siyahı etibarlı hesab ediləcəkdir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində ölkəmizin ali təhsil sisteminin təkmilləşdirilməsi və müasir standartlara uyğunlaşdırılması hədəfləri əsasında 2014-2015-ci tədris ili üçün Dövlət Proqramına namizədlərin seçimi prosesində xarici ali təhsil müəssisələrinə magistratura və doktorantura təhsil səviyyələri üzrə qəbul olunmuş gənclərə üstünlük veriləcəkdir. Belə ki, seçim prosesi çərçivəsində bərabər göstəricilərə malik olan namizədlər arasında magistratura və doktorantura səviyyələri üzrə müraciət edən şəxslər bakalavr səviyyəsi üzrə müraciət edənlərlə müqayisədə daha böyük çəkiyə malik olacaqlar.



## Xaricdə təhsil alan tələbələrimizin təşkilatçılığı ilə Novruz Bayramı ilə əlaqəli silsilə tədbirlər keçirilib

Bu tədbirlərdə xalqımızın keçmiş adət ənənələri, milli kulinariyamızın Novruz bayramına xas ləziz yeməkləri və şirniyyatları həmvətənlərimiz tərəfindən digər millətlərin nümayəndələrinə nümayiş etdirilmişdir. Bütün tədbirlərin təşkilində xarici ölkələrdə təhsil alan gənclərimiz fəal iştirak etmişlər.

Avstriyada fəaliyyət göstərən Azərbaycan Akademik Birliyinin təşkilatçılığı ilə Vyana şəhərində Novruz bayramı münasibətilə keçirilən tədbirdə bu ölkədə təhsil alan azərbaycanlı tələbələrlə yanaşı əcnəbi tələbələr, eləcə də Avstriya ictimaiyyətinin nümayəndələri və digər Avropa ölkələrindən qonaqlar iştirak etmişlər.

Novruz bayramı ilə əlaqəli tədbirlər İngiltərədə yaşayan həmvətənlilərimiz tərəfindən də unudulmamış, London, Şeffild, Aberdin kimi bir sıra böyük şəhərlərdə bayramla əlaqəli silsilə tədbirlər keçirilmişdir. Keçirilən tədbirlərdə xaricdə təhsil alan həmvətənlərimizin xüsusi rolu qeyd olunmalıdır.

Novruz bayramı ilə əlaqəli tədbirlər ötən ildən fərqli olaraq sadəcə Ukraynanın paytaxtı Kiyev şəhərində deyil Dnepropetrovsk, Nikolayev, Odessa, Poltava, Luqansk, Vinitsa və Xerson kimi digər vilayətlərində də keçirilmişdir. Keçirilən tədbirlərdə Ukrayna Azərbaycanlı Gənclər Birliyinin xüsusi rolu qeyd olunmalıdır.

Novruz bayramı ilə əlaqəli Kanadada azərbaycanlı tələbələrin iştirakı ilə yanaşı NDP partiyasının və Alberta əyalətində parlamentin üzvü olan Linda Duncan, Edmontonda keçirilən Novruz bayramı şənliyində iştirak etmişdir. Qeyd edək ki, bu il Novruz bayramı bütün dünyada 200 milyon insan tərəfindən qeyd edilib.

## Çində Azərbaycanlı gəncin "Dağlıq Qarabağ probleminin hüquqi analizi" adlı elmi məqaləsi dərc olunmuşdur

Çinin hüquq və siyasət sahəsində ən nüfuzlu elmi nəşrlərindən olan "Hüquq sistemi və cəmiyyət" jurnalında "Dağlıq Qarabağ probleminin hüquqi analizi" adlı məqalə dərc olunmuşdur. Məqalənin müəllifi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Çin Xalq Respublikasının Tsinqhua Universitetində beynəlxalq hüquq üzrə magistr təhsili almış Vüsal Qurbanovdur. Məqalədə münaqişənin qısa tarixi və Dağlıq Qarabağın hüquqi statusu barədə tədqiqatın nəticələri qeyd olunmuşdur.

Bu, Çində Dağlıq Qarabağ mövzusunda yazılmış ilk məqalə olmaqla yanaşı, münaqişə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətli bir tədqiqat hesab edilə bilər. "Hüquq sistemi və cəmiyyət" jurnalının nüsxələri Çində bütün nüfuzlu universitetlərə və araşdırma mərkəzlərinə göndərilir, elektron formada kitabxanalarda yerləşdirilir.

## Azərbaycanlı tələbənin Scopus indeksli akademik məqaləsi nəşr olundu

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Malayziyada təhsil alan Fəxri Bağırovun Scopus indeksli ilk akademik məqaləsi nəşr olunub. Məqalənin mövzusu türk

tələbələrin Malayziya Universitetlərinə duyduğu məmnuniyyətlə bağlıdır. Fəxri Bağırov qeyd edir ki, məqalə hazırlanarkən Malayziyada təhsil alan tələbələr arasında sorğu keçirilib. Sorğunun keçirilməsində Servqual modelindən istifadə olunub. Məqalə dünyaca məşhur olan Taylor və Fransis nəşriyyatı tərəfindən nəşr olunub.

## Dövlət Proqramı əsasında Azərbaycan gənclərinin xaricdə təhsil haqlarının ödənilməsi qaydası dəyişdirilib

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" ilə bağlı aparılan islahatların davamı olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 noyabr 2008-ci il tarixli, 261 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan gənclərinin xarici ölkələrin ali məktəblərində təhsil haqlarının ödənilməsi Qaydaları"na bir sıra dəyişikliklər edilib. Kabinetin 2014-cü il 13 mart tarixli, 78 nömrəli qərarına əsasən, təhsilalan təhsil aldığı ölkəyə daxil olduqdan sonra həmin ölkə üzrə müvafiq təhsil səviyyəsinin standart tədris müddətinə uyğun olaraq bakalavr səviyyəsi üzrə Kanada və Böyük Britaniya - 8 ay, digər ölkələr - 9 ay, magistratura səviyyəsi üzrə Böyük Britaniya - 12 ay, digər ölkələr - 10 ay, aspirantura, doktorantura, rezidentura səviyyələri üzrə - 12 ay üçün ödəmələr həyata keçiriləcək.

Müqayisə üçün bildiririk ki, əvvəlki illərdə Dövlət Proqramı təqaüdçüləri üçün aylıq təqaüdlər tələbə təhsil aldığı ölkəyə cari ayın 1-15-i arası daxil olduğu təqdirdə həmin aydan ev x etibarən ödənilirdi. Bu səbəbdən də Dövlət Proqramı çərçivəsində 15 gündən az təhsil alan tələbəyə həmin ay üzrə təqaüd ödənilmirdi. Yeni dəyişikliklərdən sonra isə yuxarıda qeyd olunan standart təhsil müddətindən əlavə təhsil dövrü üçün (ay və gün) yaşayış xərcləri aidiyyati ölkə üzrə aylıq yaşayış xərci normasının bir günə düşən məbləğini əlavə günlərin sayına vurmaqla müəyyən ediləcəkdir.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın icrasının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar gələcəkdə də davam etdiriləcəkdir.

## NASA-dakı həmyerlimiz, gənc alim Teymur Sadıxov Robot texnologiyaları haqqında seminar verdi



Dövlət Proqramı çərçivəsində ABŞ-ın Corciya Texnologiya İnstitutunda magistratura səviyyəsində təhsil almış Teymur Sadıxov hazırda Corciya Texnologiya İnstitutunda doktorantura səviyyəsində təhsilini davam etdirir. Teymur dünyanın aerokosmik tədqiqatlar mərkəzi hesab olunan NASA-da elmi tədqiqatla məşğul olan ilk və yeganə azərbaycanlıdır.

27 yaşlı soydaşımız hazırda NASA-nın Jet Propulsion laboratoriyasında Robotik Sistemlərin Qiymətləndirilməsi, Qərar və nəzarət qrupunda elmi tədqiqatçı, Mars planetində olan Curiosity Rover-in avtonom idarə olunması, eləcə də JPL yüksək mobilli çoxməqsədli təkərli nəqliyyat vasitəsinin avtonom, insansız idarə olunması layihələrinin iştirakçısıdır.

2008-ci ildə Kaliforniya Universitetinin San-Diego Mexanika və Aerokosmik Mühəndislik fakültəsində "Powell" fondu təqaüdçüsü olaraq elmi təhsilə başlayan soydaşımız çoxrobotlu sistemlərin kooperativ və paylaşımlı nəzarəti üçün alqoritmlər üzrə elmi tədqiqat aparıb.

Teymur 2013-cü ildə "United Technologies Corporation" təşkilatının elmi-tədqiqat mərkəzinin Avtonom və Ağıllı Robotik Sistemlər Laboratoriyasında avtonom vertolyotların şəhər mühitində qəzasız optimal trayektoriya planlaması ilə əlaqəli elmi tədqiqatla məşğul olub. Bu layihə vertolyotların avtonomlaşdırılması üçün planlaşdırılıb.

2014-cü ildə NASA-dakı həmyerlimiz, gənc alim, Teymur Sadıxov Azərbaycanlı mühəndislik təhsili alan tələbələrlə və mühəndislərlə görüşmüşdür. Seminarda o, özü haqqında məlumat verdikdən sonra robot texnologiyaları, robotiksin müxtəlif tərifləri və növləri haqqında danışmışdır. Təqdimatın digər hissəsində hal-hazırda robot texnologiyalarının vəziyyəti, qarşılaşılan çətinliklər və üzərində işlədiyi layihələr haqqında auditoriyanı məlumatlandırmışdır.